## ALQI-SATQI MÜQAVİLƏSİ ƏSASINDA MƏHSUL SATILMASI:

### Müəssisə gəlirlərin və xərclərin uçotunu hesablama metodu ilə aparır

Bir qayda olaraq, müqavilədə başqa hal nəzərdə tutulmamışsa, alqı-satqı müqaviləsi üzrə gəlir əldə etmək hüququ mal alıcıya göndərildikdən sonra əmələ gəlir. Əgər alqı-satqı müqaviləsinin şərtlərinə görə malın dəyəri qabaqcadan ödənildikdə belə, gəlir əldə etmək hüququ mal alıcıya göndərildikdən sonra əmələ gəlir, çünki yalnız bu şərtə əməl olunduqdan sonra demək olar ki, vergi ödəyicisi əqd və ya müqavilə üzrə bütün öhdəliklərini yerinə yetirmişdir,

**Misal 1.** 2017-ci ilin noyabrında müəssisə alıcıya dəyəri 3.540manat (o cümlədən ƏDV - 540 manat) olan mal göndərmişdir. Alıcı bu malın dəyərini 2018-ci ilin yanvarında ödəmişdir.

*Bu əməliyyatdan müəssisənin 2017-ci ildə gəliri 3.000 (3.540 - 540) manat təşkil edir. Göstərilən məbləğ "2017-ci il üçün mənfəət vergisinin bəyannaməsi"nin 200-cü sətrində əks etdiriləcəkdir.*

**Misal 2.** 2017-ci ilin noyabrında müəssisə gələcək mal göndərişi üçün 3.540 manat (o cümlədən ƏDV - 540 manat) məbləğində avans almışdır. 2018-ci ilin yanvarında dəyəri 3.540 manat (o cümlədən ƏDV - 540 manat) olan mal alıcıya göndərilmişdir.

*Bu əməliyyatdan müəssisənin 3.000 (3540 - 540) manat məbləğində gəliri 2018-ci ildə vergiyə cəlb olunacaqdır.*

### Müəssisə gəlirlərin və xərclərin uçotunu kassa metodu ilə aparır

Gəlirlərin və xərclərin uçotunun kassa metodunu tətbiq edən müəssisələrdə malın alıcıya nə zaman göndərilməsindən (işin, xidmətin nə zaman yerinə yetirilməsindən və görülməsindən) asılı olmayaraq satışdan gəlirin uçotu alıcıdan (sifarişçidən) ödəniş daxil olduqdan sonra tanınır. Buna müvafiq olaraq vergitutma mqsədləri üçün bu müəssisələr satışdan əldə olunmuş mənfəəti alıcıdan (sifarişçidən) ödənişin daxil olduğu ildə hesablayırlar.

Beləliklə, kassa metodunun tətbiq edildiyi halda gəlir aşağıdakı hallarda tanınır:

- ödəmə sonradan həyata keçirilirsə - pul vəsaiti daxil olduqda;
- ödəmə qabaqcadan həyata keçirilmişsə - mal göndərildikdə (iş yerinə yetirildikdə, xidmət göstərildikdə).

**Misal 1.** 2017-ci ilin noyabrında müəssisə alıcıya dəyəri 3.540 manat (o cümlədən ƏDV - 540 manat) olan mal göndərmişdir. Alıcı bu malın dəyərini 2017-ci ilin dekabrında ödəmişdir.

Bu əməliyyatdan müəssisənin 2017-ci ildə gəliri 3.000 (3.540-540) man. təşkil edir. Göstərilən məbləğ "2017-ci il üçün mənfəət vergisinin bəyannaməsi"nin 200-cü sətrində əks etdiriləcəkdir.

**Misal 2.** 2017-ci ilin noyabrında müəssisə alıcıya dəyəri 3.540 manat (o cümlədən ƏDV - 540 manat) olan mal göndərmişdir. Alıcı bu malın dəyərini 2018-ci ilin yanvarında ödəmişdir.

*Bu əməliyyatdan müəssisənin 3.000 (3540 - 540) manat məbləğində gəliri 2018-ci ildə vergiyə cəlb olunacaqdır.*

**Misal 3.** 2017-ci ilin noyabrında müəssisə gələcək mal göndərişi üçün 3.540 manat (o cümlədən ƏDV - 540 manat) məbləğində avans almışdır. 2018-ci ilin yanvarında dəyəri 3.540 manat (o cümlədən ƏDV - 540 manat) olan mal alıcıya göndərilmişdir.

*Bu əməliyyatdan müəssisənin 3.000 (3540-540) manat məbləğində gəliri 2018-ci ildə vergiyə cəlb olunacaqdır.*